

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 162 (21.063)

27 avqust 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 26-da Azərbaycan Xalça Muzeyinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev mərasimdə çıxış etdi.

Sonra akademik Teymur Bünyadov, xalçaçılıq üzrə ekspert Məmmədhüseyn Hüseynov və muzeyin direktoru Röya Tağıyeva çıxış etdilər.

Onlar birinci xanım Mehriban Əliyevanı ad günü münasibətilə təbrik etdilər.

Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeydə yaradılmış şəraitlə tanış oldular, burada nümayiş etdirilən xalçalara baxdılar.

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva paytaxtın Nəsimi rayonundakı 23 nömrəli tam orta məktəbin binasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak etdilər.

Dövlətimizin başçısı və xanımı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdilər.

Bu təhsil ocağının yenidən qurulmasına dövlətimizin başçısının Sərəncamı ilə 2012-ci ildən başlanılıb. Məktəbin binası tamamilə sökülərək yerində müasir və memarlıq baxımından zövq oxşayan altımərtəbəli bina inşa olunub.

# Payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələr müzakirə edilir



*Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində yığıncaq keçirilib. Yığıncaqda 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib.*

Tədbiri əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, nazirliyin tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar evinin təminatı diqqət mərkəzində saxlanılıb, dövlətimizin sosial sahəyə göstərdiyi diqqət və qayğının davamı olaraq, Əlillərin Bərpa Mərkəzi və Ahıllar evi əsaslı təmir edilərək istifadəyə verilib.

Nazirin sözlərinə görə, ötən il ahıl və fiziki imkanları məhdud şəxslərlə bağlanmış müqavilə əsasında 5 min cüt yun corab və 503 yun sərf toxunaraq hərbi hissəyə təhvil verilib, Naxçıvan Regional Peşə Tədris Mərkəzində “qazanxana maşinisti” peşəsi üzrə 5 kurs təşkil edilib.

Qarşıdan gələn payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlərdən bəhs edən Cavid Səfərov qeyd edib ki, şəhər və rayon Əhalinin Sosial Müdafiəsi mərkəzlərinin, Məşğulluq mərkəzlərinin, Uşaq Bərpa Mərkəzinin, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin və Ahıllar evinin binalarının qızdırılması üçün qazanxana və istilik sistemləri işlək vəziyyətə gətirilib. Elektrik naqillərində, su xətti və kanalizasiya sistemlərində heç bir çatışmazlıq və nasazlıq yoxdur.

Qarşıda duran vəzifələrdən də danışan nazir vurğulayıb ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar aidiyyəti orqanlar üzərinə düşən vəzifələrin icrası istiqamətində fəaliyyətlərini gücləndirməli, mövcud çatışmazlıqların vaxtında aradan qaldırılması üçün əməli tədbirlər həyata keçirməlidirlər. Belə ki, qazanxana işçilərinin təlimatlandırılması məqsədilə lazımi tədbirlər görülməli, müvafiq peşə kurslarının açılması təmin edilməli, hərbi hissələr üçün yun corabların toxunması işi davam etdirilməlidir. Həmçinin tənha ahıl və sağlamlıq imkanları məhdud şəxslərin payız-qış mövsümündə ehtiyaclarına uyğun geyim və digər zəruri vasitələrlə təmin olunması istiqamətində işlər davam etdirilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

* * *

*Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində də muxtar respublikanın mədəniyyət və turizm müəssisələrində payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.*

Tədbiri giriş sözü ilə mədəniyyət və turizm naziri Sarvan İbrahimov açaraq məruzə ilə çıxış edib.

Bildirilib ki, 2014-2015-ci ilin payız-qış mövsümündə mədəniyyət və turizm müəssisələrinin fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə həmin müəssisələrin yanacaq, maye qaz, soba və digər mal-materiallarla təminatına başlanılmalıdır. Qarşıdan gələn payız-qış mövsümündə 500-dən çox mədəniyyət və turizm obyektinin fasiləsiz və təhlükəsiz fəaliyyəti təmin edilməlidir. Bunun üçün mədəniyyət və turizm müəssisələrinin rəhbərləri indidən işlərini düzgün qurmalı, mal-materialın təyinatı üzrə düzgün



bölünməsi işini təşkil etməlidirlər.

“Müəssisə rəhbərləri, kitabxana, klub müdirləri təhlükəsizlik qaydalarına ciddi riayət etməlidirlər”, – deyən nazir qeyd edib ki, müəssisələrdə elektrik enerjisindən qanunsuz istifadəyə yol verilməməli, elektrik sayğacı olmayan müəssisələrdə sayğacların quraşdırılması nəzarətdə saxlanmalıdır.

Sonra şəhər və rayon Mədəniyyət və Turizm şöbələrinin müdirləri çıxış edərək payız-qış mövsümünə hazırlığın vəziyyəti haqqında məlumat veriblər.

Yığıncağa Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov yekun vurub.

* * *



*Dünən Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov açıb.*

Bildirilib ki, avqustun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin də qarşısında konkret tapşırıqlar qoyulub. Artıq bir neçə ildir ki, payız-qış mövsümünə hazırlıq işləri ilə bağlı əvvəlcədən müəyyən tədbirlər planı hazırlanaraq xüsusi işçi qrupunun nəzarəti ilə icra olunur.

Qeyd edilib ki, verilən tapşırıqların icrası ilə bağlı nazirlik qurumuş ağacların kəsilərək hərbi hissələrə verilməsini təmin etməli, payız mövsümündə yeni yaşıllıqların salınmasını davam etdirməlidir. Qış aylarında muxtar respublikanın bitki və heyvanat aləminin qorunması üçün vaxtında müvafiq tədbirlər görülməlidir. Nazirliyin İstehsalın təşkili və planlaşdırılması şöbəsi meşə istehsalı müəssisələri ilə birlikdə 2014-cü ilin payız mövsümündə həyata keçiriləcək yaşıllaşdırma tədbirlərinin həcmini müəyyənləşdirəcək, əkin keçiriləcək ərazilərin seçilərək sxem-planlarının hazırlanması, həmçinin toxmacarlıqların və etibarlı ting ehtiyatlarının yaradılması işlərinin ardıcıl yerinə yetirilməsini təmin edəcəkdir. Xüsusi mühafizə olunan təbiət ərazilərində biotexniki tədbirlərə başlanılacaq, payız mövsümündə meşə və qeyri-meşə fondu ərazilərindən qaba yem ehtiyatı yaradılacaq, daşduz, quş yemi və meyvə-tərəvəz qalıqlarından ibarət ehtiyatın tədarük edilməsi və qabaqcadan müəyyənləşdirilmiş ərazilərdə yığılıb-saxlanılması təmin olunacaqdır.

Vurğulanıb ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İnzibati-təsərrüfat şöbəsi və tabeli idarə rəhbərləri inzibati binalarda qışa hazırlığın vəziyyətini yoxlamalı, qazanxana və qızdırıcı cihazların təhlükəsiz şəkildə işləməsini təmin etmək üçün cari təmirin yerinə yetirilməsini vaxtında yekunlaşdırmalı, tabeli idarələrdə ehtiyac olan şüşə, polietilen örtük, maye qaz və ağ neft ehtiyatı müəyyən edilərək sifariş verilməli və qış mövsümündə fasiləsiz iş rejimini qorumaq üçün digər zəruri tədbirlər icra olunmalıdır.

Sonra nazirliyin əməkdaşlarından Şövqi Əliyevin, Mayis Əliyevin, idarə rəhbərlərindən Aydın Hüseynovun və Oruc Səfərovun çıxışları olub.

Tədbirə ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov yekun vurub.

*“Muxtariyyət ili”ndə Şahbuz rayonunda quruculuq tədbirlərinin həcmi artıb, coğrafiyası genişlənib. Hazırda belə tədbirlər Nursu kəndində də davam etdirilir.*

# Nursuda dörd quruculuq ünvanı

Quruculuq obyektlərindən biri kənd məktəbinin binasının yenidən qurulmasıdır. İki mərtəbədən ibarət olan məktəb binası 234 şagird yerlikdir. Məktəb binasına əlavə bir korpus artırılıb. Burada idman zalı, 2 laboratoriya, 2 elektron lövhəli sinif yerləşəcək. İnşaatçılara hərtərəfli şərait yaradılıb. Buraya kifayət qədər texnika və işçi qüvvəsi cəlb edilib. Bu isə inşaat işlərinin sürətlə və keyfiyyətlə aparılmasına imkan verib. Burada çalışan Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin bir qrup inşaatçısı öhdələrinə götürdükləri quruculuq tədbirini vaxtında başa çatdırmaq üçün səylərini əsirgəmirlər.

Digər bir obyekt kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. Adıçəkilən idarənin inşaatçıları qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada bir çox işləri başa çatdırıblar. Mərkəzdə icra nümayəndəliyi, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub, kitabxana, polis sahə və baytarlıq məntəqələri fəaliyyət göstərəcək. Həmçinin mərkəzdə rabitə evi və poçt bölməsi də yerləşəcəkdir. Kənddə abunəçilərə yüksək səviyyədə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet və digər elektron xidmətlər təklif olunacaqdır.

Daha bir quruculuq tədbiri burada inşa olunan həkim ambulatoriyasıdır. Bu bina da 2 mərtəbədən ibarətdir. Kənd sakinləri kənddə inşa olunan xidmət mərkəzini onlara göstərilən növbəti dövlət qayğısı kimi dəyərləndirirlər. Hazırda obyektdə son tamamlama işləri aparılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək Rayon İdarəsinin inşaatçıları isə Xalq şairi Məmməd Arazın ev-muzeyinin inşası ilə məşğuldurlar.

**Xəbərlər şöbəsi**

*2004-cü il sentyabrın 2-si. Muxtar respublika sakinlərinin yaddaşında uzun müddət yaşayacaq unudulmaz bir tarix. Həmin gün Naxçıvan şəhərində müstəqil Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyevin adını daşıyan təhsil ocağının binası istifadəyə verildi. Bu, sadəcə, bir məktəb binasının istifadəyə verilməsi deyildi, ümummilli liderimizin təşəbbüsü ilə tikilən və onun adına ucaldılan bir abidənin açılışı idi. Açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri indi də həmin tədbirdə iştirak edənlərin yaddaşındadır:* ***"Bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu həm memarlıq baxımından gözəl binadır, eyni zamanda burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Bu məktəbin tikintisi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun. O, bu məktəbin dünya standartlarına cavab verməsini istəyirdi. Bu gün biz hamımız çox şadıq ki, məktəb Heydər Əliyevin istədiyi kimi tikilmiş və istifadəyə verilmişdir. Deyə bilərəm ki, bu məktəb indi təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda bir nömrəli məktəbdir".***

# Heydər Əliyev adına tam orta məktəbin məzunu olmaq hər bir gənc üçün böyük şərəfdir

*2004-cü ilin sentyabrında Naxçıvan şəhərinin Babək məhəlləsində yaradılan nümunəvi tam orta məktəbə ümummilli lider Heydər Əliyevin adı verilmiş, məktəbin açılışında iştirak edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təhsil və tədrisin təşkili ilə bağlı qarşıya mühüm vəzifələr qoymuşdur. Ötən müddət ərzində ölkə Prezidentinin tapşırıq və tövsiyələri icra olunmuş, məktəb ulu öndərin adına layiq yol keçərək qabaqcıl tədris mərkəzinə çevrilmişdir.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin*
*"Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında"*
*2014-cü il 21 avqust tarixli Sərəncamından*



Qürurverici haldır ki, məktəb ulu öndərin adına layiq fəaliyyəti ilə təhsildə qazandığı uğurlarla qabaqcıl təhsil ocaqları sırasında öz layiqli yerini tutmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı 2014-cü il 21 avqust tarixli "Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında" Sərəncam məktəbin fəaliyyətinə verilən ən yüksək qiymətdir. Sərəncamda deyilir: ***"Ötən müddət ərzində ölkə Prezidentinin tapşırıq və tövsiyələri icra olunmuş, məktəb ulu öndərin adına layiq yol keçərək qabaqcıl tədris mərkəzinə çevrilmişdir.***

***Heydər Əliyev adına tam orta məktəbdə maddi-texniki baza daim təkmilləşdirilmiş, təlim-tədris üçün əlverişli şərait yaradılmışdır. Hazırda müəllim və şagirdlərin istifadəsində ən müasir elektron lövhə və kompüterlər vardır. Yaradılmış şəraitdən düzgün istifadə edilmiş, gənc nəslin təhsili və əsl vətəndaş kimi formalaşdırılması sahəsində zəruri işlər görülmüşdür. 10 ildə məktəbin məzunlarından 300 nəfərinin və ya 83 faizinin ali məktəblərə qəbul olunması tədrisin səviyyəsinin günün tələbləri səviyyəsində təşkil olunmasının əyani sübutudur. Vətənpərvər gəncliyin formalaşdırılmasına da xüsusi diqqət yetirilmiş, məzun və şagirdlərdən 42 nəfəri ali hərbi və xüsusi təyinatlı ali məktəblərə, eləcə də Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur".***

Bəli, 10 ildir ki, məktəbin kollektivi çalışdıqları təhsil ocağında ölkə Prezidentinin tövsiyələrinə əməl edərək milli təhsilimizin tərəqqisi naminə çalışır, müstəqil dövlətimizin gələcəyi üçün bilikli, vətənpərvər gənclər yetişdirirlər. Məktəbin müəllimləri unutmurlar ki, burada görülən hər bir iş ulu öndərin adına layiq olmalıdır. Ötən dövr ərzində qazanılan nailiyyətlər də sübut edir ki, pedaqoji kollektiv ümummilli liderimizin təhsil siyasətini uğurla davam etdirir. 1206 şagird yerlik məktəbdə hazırda 1114 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 105 müəllim məşğul olur. Məktəbdə 57 sinif komplekti, elektron lövhəli siniflər, 57 kompüter dəsti ilə təmin olunmuş 3 kompüter otağı vardır.

Keçilən dərslərdə dövlət rəmzlərinə, müstəqilliyimizə, Azərbaycan xalqının tarixinə, dilinə, adət və ənənələrinə, milli dəyərlərinə hörmət və qayğı aşılanır, şagirdlər vətənpərvərlik ruhunda tərbiyə olunurlar. Bu gün muxtar respublikamızın ümumtəhsil məktəblərində fiziki cəhətdən hazırlıqlı, bilikli, eyni zamanda Azərbaycan dövləti və xalqı qarşısında öz məsuliyyətini dərk edən, Azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən gənclər yetişdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun bu sözləri pedaqoji kollektivlərin devizinə çevrilmişdir: ***"Bizim təhsilimizin məqsədi təkcə savadlı, intellektli gənclər yetişdirmək deyil, həm də yüksək mənəviyyatlı, Azərbaycan xalqının milli dəyərlərinə sadiq, vətənpərvər gənclər yetişdirməkdir. Bununla yanaşı, təhsilimizin məqsədi Azərbaycan vətəndaşını, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü yetişdirməkdir".***

Xüsusilə qeyd etmək lazımdır ki, ulu öndərin adını daşıyan bu məktəb Ali Məclis Sədrinin bu sözlərini öz fəaliyyətində rəhbər tutmuşdur. Elə bu səbəbdəndir ki, Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının statistik məlumatlarında Heydər Əliyev adına tam orta məktəb ölkəmizin ən yaxşı məktəbləri sırasında öz layiqli yerini qorumaqdadır. 2013-2014-cü tədris ilində keçirilən fənn olimpiadalarında məktəbin 4 şagirdi uğurlu yerlərə sahib olmuş, məktəbi bitirən məzunlardan 43-ü ali məktəblərin, 3-ü isə orta ixtisas məktəblərinin tələbələri adına layiq görülmüşdür. Onlardan 14 nəfəri 500-700 intervalında bal toplamışdır. 6 nəfər 600-dən yuxarı bal toplayaraq məktəb kollektivinin etimadını doğrultmuşdur.

Təhsil ocağında şagirdlərin hərbi-vətənpərvərlik ruhunda böyüməsi də diqqət mərkəzində saxlanılır. Belə ki, bu il 3 məzun xüsusi təyinatlı ali hərbi məktəbə qəbul olunmuşdur. Bundan başqa, məktəbdən Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunan şagirdlərin də sayı ilbəil artır. Bu cəhətdən sonuncu tədris ili də istisna deyil. Belə ki, 16 nəfər Hərbi Liseyə qəbul olunmaq üçün imtahan vermişdir.

Məktəbin uğurları saymaqla bitməz. Təhsil ocağı 2007-2008-ci tədris ilinin yekununa görə, ölkəmizdə "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmuşdur.

Məktəbdə şagirdlərin fiziki hazırlığına da ciddi önəm verilir. Müasir standartlara uyğun şəkildə hazırlanan idman zalı və mini-futbol meydançasında məktəblilər idmanın müxtəlif növləri ilə məşğul olurlar. Bu da bəhrəsiz qalmır, şagirdlər respublika əhəmiyyətli idman yarışlarında və olimpiadalarda fəal iştirak edərək yüksək nailiyyətlər qazanırlar. Hazırda məktəbin şagirdləri arasında iki nəfər boks üzrə Avropa çempionu vardır. Məktəbin bir nəfər şagirdinin adı "Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınmışdır.

Təhsil müəssisəsində şagirdlərin ideya-siyasi tərbiyəsinə, müasir düşüncə tərzinin formalaşdırılmasına, onların milli və ümumbəşəri dəyərləri mənimsəmələrinə, vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilir. Hər il əlamətdar günlərlə bağlı yaddaqalan tədbirlər keçirilir. Məqsəd isə ondan ibarətdir ki, şagirdlər intellektual səviyyədə biliklərə yiyələnməklə yanaşı, Heydər Əliyev ideyalarına, Heydər Əliyev yoluna, dövlətimizə, müstəqilliyimizə sadiq vətəndaşlar kimi yetişsinlər. Ümummilli liderimiz Heydər Əliyevlə bağlı keçirilən müsabiqələrdə məktəbin şagirdlərinin fəal iştirakını da xüsusi qeyd etməliyik. Hər il keçirilən müsabiqələrdə məktəb yeni uğurlara imza atır. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən müsabiqədə məktəbin 1 nəfər şagirdi birinci yerin sahibi olmuşdur. Məktəbin direktoru, Azərbaycan Respublikasının əməkdar müəllimi Namiq Məmmədov bildirdi ki, təhsil ocağında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasi irsinin şagirdlərə öyrədilməsində müxtəlif metodlardan istifadə olunur. Heydər Əliyev lektoriyalarında ulu öndərin Azərbaycan xalqı üçün həyata keçirdiyi cahanşümul tədbirlər, ümummilli liderin hər bir azərbaycanlı üçün örnək olan həyat və siyasi fəaliyyəti şagirdlərimizə aşılanır. Xüsusən də məktəbimizdə ulu öndərimizin hər kəsə örnək həyat və fəaliyyətini əks etdirən guşənin yaradılması şagirdlərin dövlətçilik və milli ideologiya ruhunda tərbiyə olunmalarına xidmət edir. Təhsil ocağında yaradılmış ənənələrdən biri də məktəbin birinci sinfinə qəbul edilən şagirdlərin və XI sinfi bitirib müstəqil həyata qədəm qoyan məzunların ümummilli liderin abidəsi önündə and içmələridir.

Heydər Əliyev adına tam orta məktəbin məzunu olmaq, bu məktəbdə bilik qazanmaq hər bir gənc üçün böyük şərəf, bu məktəbdə dərs demək, pedaqoji fəaliyyət göstərmək isə hər bir müəllim üçün böyük etimad və ciddi məsuliyyətdir. Ona görə də məktəbin müəllimləri öz bilik və təcrübələrinin yüksəldilməsini qarşıda duran əsas vəzifələrdən hesab edir, pedaqoji və metodik ustalıqlarının artırılması qayğısına qalırlar. Bu səbəbdəndir ki, məktəbin müəllimlərindən iki nəfəri Londonda təşkil olunan Beynəlxalq dil və mədəniyyət kursunda iştirak etmişdir. Məktəbin müəllimləri Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təşkil etdiyi seminarlarda fəal iştirak edirlər. Məktəbdə hazırlanan elektron tədris vəsaitləri kompakt disklər şəklində muxtar respublikanın digər ümumtəhsil məktəblərinə də göndərilir. Kollektivin üzvləri ictimai-siyasi proseslərdə də öz fəallıqları ilə seçilirlər. Onlar Yeni Azərbaycan Partiyasının fəal üzvləri, ümummilli liderin ideyalarının təbliğatçısıdırlar. Qeyd edək ki, məktəbin müəllimlərinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Belə ki, məktəbin müəllimlərindən 3 nəfəri Azərbaycan Respublikasının, 2 nəfəri Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi fəxri adlarına layiq görülmüş, 4 nəfər isə "Tərəqqi" medalı ilə təltif edilmişdir. Bir nəfər müəllim "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşdur.

İnsan ömrü! Onu günlərlə, aylarla, illərlə ölçmək nə qədər doğrudur? Ömür var ki, əsrə bərabər olsa da, günləri, ayları qum dənələri kimi barmaqlar arasından axıb tökülür, heç bir iz qoymadan ötüb keçir. Ömür də var ki, özü başa çatsa da, izi, sorağı aylarda, illərdə, qərinələrdə qalır, xalqının tarixinə düşür, onun həyatında yenidən yaşayır, sonrakı nəsillər üçün bir örnək, nümunə olur. Ümummilli lider Heydər Əliyev xalqımızın qəlbində məhz belə şəxsiyyətlərin fövqündə dayanan dahi rəhbər kimi yaşayır. Çünki O, möhkəm bir dövlət qurmağın və bu dövlətin əbədi olaraq yaşamasının yollarını bizə miras qoymuşdur. Xalqımız haqlı olaraq bu mirası Heydər Əliyev məktəbi adlandırır. Bu, elə bir məktəbdir ki, bizim hər birimiz ondan bəhrələnirik. Dahi rəhbərin qurduğu müstəqil Azərbaycanda gənclər öz vətənpərvərliyi və intellekti ilə müstəqilliyimizin möhkəmləndirilməsində, ölkəmizin inkişafında öz fəallıqları ilə seçilirlər. Heydər Əliyev adına tam orta məktəbin kollektivi də məhz belə gənclərin yetişdirilməsi üçün əlindən gələni əsirgəmir. Bu təhsil ocağı bundan sonra da ölkəmizin qabaqcıl məktəbləri sırasında olacaq, məktəbin məzunları müstəqil Azərbaycanın və muxtar respublikamızın daha da çiçəklənməsi üçün böyük uğurlara imza atacaqlar.

*Yazını isə məktəb kollektivinin dilində əzbərə çevrilmiş şeirlə bitirmək istəyirəm:*

*Yorulmadan qurdu kəndlər, şəhərlər,*
*Üzümüzə açdı nurlu səhərlər –*
*Bu yüksəliş düşmən ruhu zəhərlər.*
*Heydər baba qəlbimizdə yaşayır,*
*Məktəbimiz Heydər adı daşıyır.*

**Sara ƏZİMOVA**

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsi diqqət mərkəzindədir

Ordubad rayonunda keçirilən növbəti əmək yarmarkasını rayon Məşğulluq Mərkəzinin direktoru Telman Həsənov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası sakinlərinin əmək hüququnun qorunması, əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, işçilərin maddi, sosial, mənəvi və digər həyati tələbatlarının ödənilməsi sosial-iqtisadi siyasətin əsas prioritet istiqamətini təşkil edir. Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada səmərəli işgüzarlıq mühiti formalaşdırılıb, investisiya fəallığı daha da artırılıb, insan kapitalının yüksək inkişaf səviyyəsi təmin edilib.

Qeyd olunub ki, Ordubad Rayon Məşğulluq Mərkəzinin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində olan boş iş yerləri haqqında məlumatlar toplayaraq həmin yerləri əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edirlər. Bugünkü əmək yarmarkası da işaxtaran vətəndaşların, xüsusilə gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların münasib işlə təmin edilməsi istiqamətində ardıcıl olaraq həyata keçirilən mühüm tədbirlərdən biridir. Yarmarkanın təşkilində əsas məqsəd işaxtaranların öz ixtisaslarına uyğun işlə təmin olunmasıdır. Ötən illərdə mərkəzə müraciət edən vətəndaşlar əmək yarmarkaları vasitəsilə özlərinə daimi iş yerləri tapıblar.

İşaxtaran vətəndaş Zövqiyə Kərimova belə yarmarkaların keçirilməsinin vətəndaşların işlə təmin edilməsində böyük əhəmiyyəti olduğunu vurğulayıb, işaxtaranlara, xüsusilə gənclərə istəklərinə uyğun iş yeri tapmaq üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirib.

Əmək yarmarkasında Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli çıxış edərək ölkəmizdə, eləcə də muxtar respublikamızda əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)" nın uğurlu icrası işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azalması ilə nəticələnib. Muxtar respublikamızda da həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır və muxtar respublika sakinləri tərəfindən onlara göstərilən böyük qayğı kimi dəyərləndirilir. Fərqanə Hüseynli əmin olduğunu bildirib ki, bu gün keçirilən əmək yarmarkasında da iştirak edənlər istəklərinə uyğun iş yeri əldə edəcəklər.

Əmək yarmarkasında işaxtaranlara 19 təşkilatdan 224 boş iş yeri təqdim olunub. 20 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, bu gün Babək rayonunda da əmək yarmarkası keçiriləcək.

**Sona MİRZƏYEVA**

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Naxçıvan şəhər sakini İlqar Nəsibovun Naxçıvanda "Demokratiya və QHT-lərin İnkişaf Resurs Mərkəzi" İctimai Birliyinin ofisində döyülməsi ilə əlaqədar 2014-cü il 23 avqust tarixdə yaydığı məlumata əlavə olaraq aşağıdakıları bildirir:

Naxçıvan Şəhər Polis İdarəsinin İstintaq və təhqiqat bölməsi tərəfindən aparılan araşdırma zamanı aydın olmuşdur ki, Naxçıvan şəhər sakini İlqar Nəsibov avqustun 21-də saat $22^{30}$-da sərxoş vəziyyətdə Naxçıvan Muxtar Respublika Xəstəxanasına gətirilmiş, aldığı xəsarətə görə ona ilkin tibbi yardım göstərilmişdir. Avqustun 22-də həyat yoldaşının təkidi ilə İlqar Nəsibov evə buraxılmışdır.

Fərid Əsgərov öz izahatında bildirmişdir ki, onun ailə üzvləri iqtidaryönümlüdürlər. Bu səbəbdən İlqar Nəsibov onun ailə üzvləri barədə nalayiq və təhqiramiz ifadələr işlətmişdir. Fərid Əsgərov təhqiramiz ifadələr işlədən İlqar Nəsibovun cavabını vermiş, bu isə qarşılıqlı ittihama və davaya səbəb olmuşdur.

***26 avqust 2014-cü il***


NAXÇIVAN MUXTAR RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
NAXÇIVAN MUXTAR RESPUBLİKA XƏSTƏXANASI
№ 788
25.08.2014 il

**ARAYIŞ**

Naxçıvan Şəhər Polis İdarəsinin
İstintaq və Təhqiqat Bölməsinə

Ondan ötəri ki, həqiqətən xəstə, 1965-ci il təvəllüdlü, Naxçıvan şəhəri, H.Əliyev prospekti ev 37, mənzil 91 sakini Nəsibov İlqar Elbəyi oğlu 21.08.2014-cü il tarixdə saat $22^{30}$-da ağır alkoqol sərxoşluq halında Naxçıvan Muxtar Respublika Xəstəxanasına gətirilmiş, aldığı xəsarətə görə ilkin tibbi yardım göstərilmişdir. 22.08.2014-cü il tarixdə saat $14^{35}$-də xəstənin həyat yoldaşının təkidi ilə xəstə evə buraxılmışdır.

**Naxçıvan Muxtar Respublika Xəstəxanasının Baş həkimi:** **Ə.Ələsgərov**

**Müalicə həkimi:** **X.Tutayuk**

## Dövlət Yol Poisi İdarəsində sığorta işinin təşkili ilə bağlı tədbir keçirilib



Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birlikdə muxtar respublikada avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasının aparılması sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.

Tədbiri Dövlət Yol Polisi İdarəsinin rəisi, polis mayoru Aydın Ağayev açaraq qeyd edib ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta müqavilələrinin bağlanmasına nəzarət qanunla Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisinə həvalə olunub. Bu işin aparılması üçün Dövlət Yol Polisi İdarəsinin əməkdaşları Dövlət Baş Sığorta Agentliyi ilə birlikdə tədbirlər həyata keçirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək sığortanın əhəmiyyətindən danışıb. Bildirilib ki, Dövlət Yol Polisi ilə birgə aparılmış işlər nəticəsində muxtar respublikada avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sahəsində irəliləyişlər əldə edilib. Hazırda avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə qüvvədə olan müqavilələrin sayı 17 mindən çoxdur. Bu isə o deməkdir ki, avtonəqliyyat vasitəsi sahibi olan şəxs yol-nəqliyyat hadisəsi baş verdikdə üçüncü şəxslərə dəymiş zərər məbləğinin ödənilməsində sığorta ödənişlərindən istifadə edə bilər. Qeyd olunub ki, görülmüş işlərlə bərabər, hələ də avtonəqliyyat vasitəsi sahibləri arasında mülki məsuliyyətini icbari sığorta etdirməyən vətəndaşlar vardır. Qarşıda duran vəzifə isə Azərbaycan Respublikasının qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir avtonəqliyyat vasitəsi sahibini, onun mülki məsuliyyətini icbari sığortaya cəlb etməkdir.

Sonra Babək Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi bölməsinin rəisi Seyidrza Seyidov, Şahbuz Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi qrupunun baş inspektoru Etibar Nağıyev, Şahbuz və Şərur Rayon Dövlət Sığorta agentliklərinin direktorları Nuran Xəlilov, Fikrət Mustafayev çıxış edərək sığorta işinin günün tələbləri səviyyəsində qurulması üçün qarşıda duran vəzifələrdən danışıblar.

Tədbirin sonunda sığorta işinin aparılmasında fərqlənmiş Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarından 15 nəfərə pul mükafatı verilib.

Tədbirə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Dövlət Yol Polisi İdarəsinin rəisi, polis mayoru Aydın Ağayev yekun vurub.

**Əli CABBAROV**

*İstehsal müəssisələri*

## "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi"ndə istehsal olunan məhsullara tələbat artır

*"Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan şəhərində, Babək rayonunun Araz və Kəngərli rayonunun Qarabağlar kəndlərində istehsal müəssisələri, Kəngərli rayonunun Qarabağlar və Çalxanqala kəndlərinin ərazilərində isə daş karxanaları fəaliyyət göstərir.*

Daş karxanalarında əvvəlcə kəşfiyyat xarakterli qazıntı işləri aparılır və daşın keyfiyyəti yoxlanılır. Sonra isə blok şəklində kəsilən daşlar ağırtonnajlı maşınlarla Şahtaxtı stansiyasına daşınıb yük vaqonları ilə istehsal müəssisələrinə göndərilir.

Babək rayonunun Araz kəndi yaxınlığında yerləşən istehsal müəssisəsi son illər muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılıb. İstehsal sahəsi üçün zəruri avadanlıqların alınması və tikinti-quraşdırma işlərinin aparılması məqsədilə Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilib. İtaliya və Türkiyədən alınmış müasir texnoloji avadanlıqların quraşdırıldığı və 5000 kvadratmetr tikili ərazisi olan istehsal müəssisəsi 2005-ci ildə fəaliyyətə başlayıb. Gündəlik istehsal gücü 1000 kvadratmetr olan müəssisədə keyfiyyətli travertin istehsal olunur.

Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq tədbirləri nəticəsində müəssisənin istehsal etdiyi məhsullara tələbatın daha da artdığını bildirən "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Zeyqəm Rəhimov dedi ki, diyarımızın təbii sərvətlərindən daha səmərəli istifadə etmək üçün 2010-cu ilin oktyabr ayında Naxçıvan şəhərində travertin və mərmər emalı üzrə ixtisaslaşmış yeni istehsal müəssisəsi fəaliyyətə başlayıb. Qarabağlar və Çalxanqala kəndləri ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşlar emal üçün bu müəssisəyə gətirilir. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir. Müəssisədə Türkiyə istehsalı olan "Sesemak" markalı avadanlıqlar quraşdırılıb. Böyük və kiçikölçülü travertin plitələrdən, əsasən, binaların fasadının və həyətyanı sahələrin bəzədilməsində, mozaik travertinlərdən isə müxtəlifnaxışlı bəzək üzlüklərinin hazırlanmasında istifadə olunur. Gündəlik maksimum istehsal gücü 2000 kvadratmetr olan müəssisədə klassik ağ və qara suyollu travertin məhsulları ilə yanaşı, Naxçıvan sədəfi və qara inci mərmər də istehsal edilir. Həmçinin müəssisədə dekorasiya sexi də fəaliyyət göstərir. Burada kompüterlə idarə olunan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisəyə verilən hər hansı bir sifarişə uyğun travertinin üzərində oyma üsulla naxışlar salınır.

"Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində yerli xammaldan səmərəli istifadə olunmaqla istehsal edilən tikinti materialları ölkəmizdə, o cümlədən muxtar respublikamızda aparılan quruculuq tədbirlərinin daha geniş vüsət almasına stimul verir, müasir memarlıq üslubu ilə neçə-neçə binaları bəzəyir. Eyni zamanda cəmiyyət əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayır; burada 507 nəfər daimi işlə təmin olunub. Müəssisənin istehsal etdiyi məhsullara olan tələbatı ödəmək, sifarişləri vaxtında və keyfiyyətlə yerinə yetirmək məqsədilə kollektiv mövcud imkanlardan səmərəli istifadə etməyə çalışıb, cari ilin 7 ayında 3 milyon 430 min manatlıq məhsul istehsal edilib sifarişçi şirkətlərin ünvanlarına göndərilib.

***Müəssisədə istehsal olunan məhsulların xarici bazarlara çıxarılması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Bakı şəhərində və xarici ölkələrdə keçirilən biznes forumlarda müəssisə nümayəndəsinin iştirakı və beynəlxalq sərgilərdə müəssisədə istehsal olunan məhsulların nümayişi təmin edilib, nəticədə, məhsullar xarici şirkətlərin marağına səbəb olub. Həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib, ötən il "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan məhsullardan sifarişə uyğun olaraq Gürcüstan Respublikasına da göndərilib. Məhsulların digər xarici ölkələrə də ixrac olunması planlaşdırılır.***

**Kərəm HƏSƏNOV**

## Təbiətimiz də övladımız kimi qayğıya möhtacdır

***...Ömrü-günü açıq havada, alaçıqda keçən, illərin izlərini nurlu çöhrələrindəki qırışlarda yaşadan ağbirçəklərimiz, ağsaqqallarımız torpaqla əlləşib-vuruşublar. Alın tərini torpağa qarışdıran, əllərinin qabarı ilə torpağı ovxalayanlar ondan əldə etdikləri nemətlərlə övladlarını doyurublar. Nə gecə biliblər, nə gündüz. Sağlamlığın da, uzunömürlülüyün də əlacını işdə, zəhmətdə görüblər. Yorulanda bir ağacın dibində oturub bir qurtum su içib, bir dürmək çörək yeməklə dünyanın yorğunluğu çıxıb canlarından. Bir çimir yuxudan sonra yenidən torpaqla çək-çevirə başlayıblar, ta gün dönüb anasının qoynuna girənə kimi. Sağlığı da, saflığı da, uzun ömrü-günü də beləcə qazanıblar. Ona "möhtac" olub, ondan dolanıblar.***

Deməli, insan yaranışından təbiətlə bağlı olub. O, əkib-becərib, təbiət də doyurub, dolandırıb. Ona görə də gələcəyimiz naminə bu ünsiyyəti elə babalarımız kimi biz də saxlamağa borcluyuq.

Qafqazın zəngin təbii muzeyi sayılan Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamız misilsiz təbii gözəlliklər diyarıdır. Çünki il boyu zirvəsi qarla örtülü olan dağlar, könülaçan sərin yaylaqlar, zəngin və nadir landşafta malik ovalıqlar, çaylar, çeşmələr,



bulaqlar, canlı və cansız təbiət inciləri qərinələrdir ki, bu diyarı dünyada tanıdır. Belə bir gözəllik məskəni olan yurdumuza insan əli ilə yeni gözəllik naxışlarının da vurulması yurd yerlərimizdə təkrarolunmaz və heyrətamiz mənzərələr yaradıb. Əgər Azərbaycanın ən uca zirvəsindən durub Şərqin qapısı olan Naxçıvana və onun ətraflarına nəzər salsaq, oradan qeyri-adi bir mənzərə – yaşıl dünya və al-əlvan rəngli güllərin çələngini görərik. Bu görüntü içərisində muxtar respublikamızın hər bir rayonu bir ayrı mənzərə ilə könül açar. Onun yeddi şaxəsi kimi müxtəlif istiqamətlərdə yerləşən rayonlarında sanki bu gözəlliklər tamamlanır. Belə gözəlliklər diyarı olan Şahbuzda da yol boyunca sağ və sol tərəflərdə cərgələnmiş ağaclar, salınan gülkarlıqlar, dağ döşündə, yastanlarda əkilən körpə fidanlar rayonun təbiətinə insan qayğısından xəbər verir. Bu qayğını təbiətdən əsirgəməyən şahbuzlular isti yay günlərində əkilən tinglərin, salınan bağların və yaradılan yaşıllıq zolaqlarının məhv olmaması üçün hər həftə iməciliklər yolu ilə onları suvarır, diblərini boşaldır, aqrotexniki tədbirlər həyata keçirirlər.

Bütün fəsillərdə – yazda, yayda, payızda və qışda zəhmətlərini torpaqdan və yaradılan gözəllikdən, Tanrı vergisi olan təbiətimizdən, rayonun abadlığından əsirgəməyən şahbuzlular övladlarının gələcəyi və sağlamlığı üçün görülən işlərə kömək edirlər. Əsasən, şənbə günlərində iməcilik yolu ilə görülən işlər hər kəsin könüllü olaraq bu işə dəstək verdiyinin göstəricisidir. Şənbə iməcilikləri zamanı rayonun sakinləri yaşıllıq sahələri daha da genişləndirməyə, meşə sahələrindəki seyrəklikləri aradan qaldırmağa, körpə fidanların əkilməsinə, gül kollarının çoxaldılmasına çalışır, səliqə-sahmanı qorumaqla qurulanlara, yaradılanlara qayğı göstərirlər.

Buna görə də iməciliyə çıxan şahbuzlular Şahbuz şəhərindəki yaşıllıq zolaqlarından tutmuş massivlərdə, bağlarda, yol kənarlarında və müxtəlif ərazilərdə olan ağaclara qulluq edir, mövsümlə əlaqədar onları suvarır, becərmə işləri aparır, təmizlik işləri görürlər. Rayonun kəndlərinin hər birində də bu işlər ardıcıl şəkildə il boyu davam etdirilir, abadlıq, səliqə-sahman işləri öz bəhrəsini verir.

Ekologiyanın qorunması, yaşıllıqların artırılması, iməciliklər vasitəsilə həyata keçirilən bütün işlər və ümumilikdə, bu sahədə həyata keçirilən tədbirlər yurd yerlərimizi daha da cazibədar edir, qonaqların sayını artırır. Şahbuzlular isə gördükləri işlə fəxr edir, qürur duyurlar.

Məlum həqiqətdir ki, planetimizdə insanların sayı sürətlə artır. Texnika günü-gündən inkişaf edir. Bunun nəticəsində bəşəriyyət öz inkişafının yüksək mərhələsini yaşayır. Və elə bu inkişaf nəticəsində insan təbiətə təsir edə bilir. Əlində mükəmməl texniki vasitələr cəmləşdirməklə təbiətdən daha çox mənfəət götürməyə çalışan insan bu mənfəətin əvəzində təbiətə nə isə vermirsə, onu qorumursa, tarazlığını pozursa, onda bu inkişaf onun zərərinə dəyişir. Bəlkə də, bunu xırdalıqlarına qədər diqqətdən qaçıran Adəm övladı bəzən hər addımbaşı təbiətin "qisası" ilə üzləşir. Ona görə də təbiətə övladımız kimi qayğı göstərməliyik ki, ekoloji tarazlıq pozulmasın. Bunun isə bircə yolu var – təbii sərvətlərin mühafizəsini düzgün təşkil etmək, onlardan səmərəli istifadəyə səy göstərmək və təbiətə aldıqlarımızın əvəzində nə isə vermək. İnsan təbiətə nə verə bilər? Sualın bircə cavabı var: yaşıllıq sahələrini artırmaq, fauna və floranı qorumaq. Təbiətimizin əsasını təşkil edən oksigen mənbəyi olan yaşıllıqların qorunması, artırılması insanın qarşısında duran ən vacib vəzifələrdəndir. Çünki təbiətlə daim üzbəüz olan insan unutmamalıdır ki, bu səxavətli, əliaçıq təbiət yaşam üçün insana hər şey verir. Çəkilən yol da, salınan körpü də, adicə kiçik bir arx da, tikilən nəhəng zavodlar, binalar da, hətta balaca bir daxma da təbiətin bir parçası olan torpaqda istifadə nəticəsində reallaşır. Buna görə də torpaq adlı nemətin, kainatın əsası olanının yetirdiyi, bitirdiyi bütün nemətlərin qədrini bilməliyik ki, yüksək məhsul bolluğu yarada biləк. Həmçinin qorxusuz, həyəcansız bir dünyada yaşayaq.

**Şəhla NƏBİYEVA**

# Yanacaqdoldurma məntəqələrində təhlükəsizlik tədbirlərinə ciddi əməl edilməlidir

*Yanacaqdoldurma məntəqələri insanların daha çox istifadə etdiyi obyektlərdən olmaqla, partlayış kateqoriyalı ən təhlükəli obyektlər siyahısına daxildir.*

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi yanacaqdoldurma məntəqələrində texniki təhlükəsizlik və yanğın təhlükəsizliyi qaydalarının tələblərinə əməl olunması məqsədilə müəssisə rəhbərləri və orada çalışan insanlar tərəfindən aşağıda qeyd olunan texniki təhlükəsizlik və yanğın təhlükəsizliyi qaydalarının tələblərinə ciddi əməl olunmasını vacib hesab edir.

Yanacaqdoldurma məntəqələrinin istismarı zamanı təhlükəsizlik qaydalarının pozulması, mövcud istismar qaydalarının tələblərinə əməl olunmaması, işin düzgün təşkil edilməməsi, əməkdaşlara əməyin mühafizəsi və yanğın təhlükəsizliyi qaydalarının öyrədilməməsi, qabaqlayıcı tədbirlərin həyata keçirilməməsi, ehtiyatsızlıq yanacaqdoldurma məntəqələrində yanğın və partlayış təhlükəsi yaradan başlıca səbəblərdəndir. Bütün bu amillər mövcud qaydalara əsasən, diqqət mərkəzində saxlanılarsa, təbiət hadisələrinin təsiri istisna olmaqla, yanacaqdoldurma məntəqələrində fövqəladə hadisələrin, o cümlədən partlayış və ya yanğın hadisələrinin başvermə ehtimalı olduqca aşağı olar.

Yeraltı maye yanacaqsaxlama çənləri olan yanacaqdoldurma məntəqələrinin məktəbəqədər uşaq müəssisələrindən, stasionar müalicə müəssisələrindən, yaşayış və ictimai binalardan ən azı 50 metr məsafədə tikilib-quraşdırılması tövsiyə olunur.

Təhlükəsizliyi təmin etmək məqsədilə yüksəkgərginlikli və daha yuxarı gərginliyə malik elektrik hava xətlərindən yanacaqdoldurma məntəqələrinə qədər olan məsafə 10 metrdən az olmamalıdır. Gərginlik və ya digər parametrlərdən asılı olmayaraq, yüksəkgərginlikli elektrik hava xətlərinin yanacaqdoldurma məntəqələrinin üzərindən keçməsi qadağandır.

Təcrübə və statistika göstərir ki, yanacaqdoldurma məntəqələrində baş verən hadisələr daha çox istismar qaydalarının pozulması nəticəsində baş verir. Ona görə də yanacaqdoldurma məntəqələrində işə qəbul olunmuş hər bir əməkdaşın ümumi texniki, o cümlədən yanğın təhlükəsizliyi qaydalarını mükəmməl bilməsi çox vacibdir.

Yanacaqdoldurma məntəqələrində ilkin yanğınsöndürən alət və vasitələr daim normaya uyğun saxlanılmalıdır. Yanacaq doldurarkən avtomobillərin mühərriki söndürülməlidir.

Yanacaqdoldurma məntəqələrində yeraltı və yerüstü yanacaqsaxlama çənlərində sızmanı nəzarətdə saxlayan avtomatik sistemin nəzarət lövhəsi fasiləsiz olaraq müşahidə altında saxlanılmalıdır. Yanacaqdoldurma məntəqələrinin ərazisində siqaret çəkilməsi qəti qadağan edilməli və bu, ciddi nəzarətdə saxlanılmalıdır. Burada mobil telefonlardan istifadə olunması da yanğın təhlükəsizliyi qaydalarına ziddir. Yadda saxlamaq lazımdır ki, mobil telefonların açılması və ya zəng çalması nəticəsində yayılan dalğa yanmaya səbəb olacaq kiçik qığılcımın meydana gəlməsi üçün kifayət edəcək qədər enerji yaradır. Bu səbəbdən də yanacaqdoldurma məntəqələrində olarkən və ya maşınlara yanacaq doldurarkən mobil telefonlardan qəti surətdə istifadə edilməməlidir.

Yuxarıda qeyd olunanlarla bağlı hər hansı bir yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin **“112”** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin şəhər-rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin **“101”** nömrəli xidməti telefonlarına zəng etməyi unutmayın.

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

## Şərur rayonundakı ümumtəhsil məktəblərində 2014-2015-ci dərs ilində pedaqoji kadrlara olan ehtiyac haqqında məlumat

| S.S | Məktəbin adı | Məktəblərlə rayon mərkəzi arasında məsafə (km) | Azərbaycan dili və ədəbiyyat | | Xarici dil | | Riyaziyyat | | İnformatika | | Tarix | | Coğrafiya | | Fizika, Astronomiya | | Kimya | | Biologiya | | Əmək hazırlığı | | Rəsmxət və rəsm | | Fiziki tərbiyə | | Gənclərin çağırışa qədərki hazırlığı | | Musiqi və nəğmə | | İbtidai sinif | | Cəmi: | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat | Vakant yer | Saat |
| 1. | Düdəngə kənd tam orta məktəbi | 2 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 2 | 26 | 2 | 26 |
| 2. | Cəlilkənd tam orta məktəbi | 3 | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 2 | 24 |
| 3. | Mahmudkənd tam orta məktəbi | 5 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 4. | Oğlanqala kənd tam orta məktəbi | 6 | | | | | | | | | | | | | | | 1 | 6 | | | | | | | | | | | | | | | 1 | 6 |
| 5. | Həmzəli kənd tam orta məktəbi | 12 | | | 1 | 12 | | | 1 | 12 | | | 1 | 10 | | | | | 1 | 12 | | | | | | | 1 | 4 | | | | | 5 | 50 |
| 6. | Axura kənd tam orta məktəbi | 18 | | | 1 | 12 | | | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | | | 2 | 26 |
| 7. | Aşağı Yaycı kənd tam orta məktəbi | 15 | | | 1 | 16 | | | | | | | 1 | 10 | | | | | | | | | | | | | 1 | 4 | | | | | 3 | 30 |
| 8. | Yuxarı Yaycı kənd tam orta məktəbi | 20 | | | | | | | | | 1 | 12 | 1 | 10 | | | | | | | | | | | | | | | | | 1 | 12 | 3 | 34 |
| 9. | Gümüşlü kənd tam orta məktəbi | 18 | 1 | 12 | 1 | 14 | | | | | | | | | 1 | 10 | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | 5 | 60 |
| 10. | Şahbulaq kənd tam orta məktəbi | 27 | 1 | 16 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 1 | 16 | 3 | 44 |
| 11. | Havuş kənd tam orta məktəbi | 30 | | | 1 | 12 | | | 1 | 8 | | | | | | | | | | | | | | | | | | | | | | | 2 | 20 |
| 12. | Sərxanlı kənd tam orta məktəbi | 4 | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 4 | | | | | 2 | 16 |
| 13. | Qarxun kənd tam orta məktəbi | 3 | 1 | 12 | | | 1 | 10 | | | | | | | 1 | 10 | | | 1 | 12 | | | | | | | 1 | 8 | | | 1 | 12 | 6 | 64 |
| 14. | Siyaqut kənd tam orta məktəbi | 5 | | | | | | | | | | | | | | | 1 | 8 | | | | | | | | | | | | | | | 1 | 8 |
| 15. | Aşağı Daşarx kənd tam orta məktəbi | 10 | | | 1 | 23 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 2 | 35 |
| 16. | Yuxarı Daşarx kənd tam orta məktəbi | 7 | | | 1 | 12 | | | | | | | 1 | 8 | 1 | 12 | | | | | | | 1 | 10 | | | | | | | | | 4 | 42 |
| 17. | Dərəkənd tam orta məktəbi | 9 | | | 1 | 28 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | 2 | 40 |
| 18. | Yeni Havuş kənd tam orta məktəbi | 16 | | | | | | | 1 | 8 | | | | | 1 | 9 | | | | | | | | | | | | | | | 1 | 19 | 3 | 36 |
| 19. | Danyeri kənd tam orta məktəbi | 12 | | | | | 1 | 12 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | 2 | 24 |
| 20. | Tənənəm kənd tam orta məktəbi | 20 | | | 1 | 18 | | | | | | | 1 | 10 | 1 | 12 | 1 | 10 | | | | | | | | | | | | | | | 4 | 50 |
| 21. | Xanlıqlar kənd tam orta məktəbi | 10 | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 14 |
| 22. | Vərməziyar kənd tam orta məktəbi | 11 | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 23. | Tumaslı kənd tam orta məktəbi | 12 | | | | | 1 | 12 | | | 1 | 16 | | | | | | | | | | | | | | | | | | | | | 2 | 28 |
| 24. | İbadulla kənd tam orta məktəbi | 14 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 25. | Ərəbyengicə kənd tam orta məktəbi | 15 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 26. | Qarahəsənli kənd tam orta məktəbi | 15 | | | | | | | 1 | 11 | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | 1 | 14 | | | | | | | 4 | 49 |
| 27. | Çəmənli kənd tam orta məktəbi | 12 | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 14 |
| 28. | Dərvişlər kənd tam orta məktəbi | 6 | | | | | 1 | 14 | | | | | 1 | 10 | | | | | | | | | | | | | | | | | | | 2 | 24 |
| 29. | Çərçiboğan kənd tam orta məktəbi | 4 | | | | | | | | | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | 1 | 14 |
| 30. | Arbatan kənd tam orta məktəbi | 6 | | | | | | | 1 | 8 | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 8 |
| 31. | Yengicə kənd tam orta məktəbi | 3 | | | | | 2 | 28 | | | 1 | 10 | | | 1 | 10 | | | | | | | | | | | | | | | | | 4 | 48 |
| 32. | Xələc kənd tam orta məktəbi | 6 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 33. | Alışar kənd tam orta məktəbi | 7 | | | | | 1 | 14 | | | | | | | | | | | | | | | | | | | 1 | 4 | | | | | 2 | 18 |
| 34. | Muğanlı kənd tam orta məktəbi | 6 | | | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 35. | Qorçulu kənd tam orta məktəbi | 7 | | | | | | | 1 | 10 | | | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | | | | | 3 | 34 |
| 36. | Şəhriyar kənd tam orta məktəbi | 4 | 1 | 12 | 2 | 28 | 1 | 14 | | | 2 | 24 | 1 | 10 | | | | | | | | | | | 1 | 14 | | | | | 1 | 14 | 9 | 116 |
| 37. | Kürkənd tam orta məktəbi | 4 | | | | | 1 | 12 | 1 | 10 | | | | | | | | | | | | | | | | | | | | | | | 2 | 22 |
| 38. | Kürçülü kənd tam orta məktəbi | 5 | | | | | 1 | 12 | | | | | | | 1 | 12 | 1 | 12 | | | | | | | | | | | | | | | 3 | 36 |
| 39. | Axaməd kənd tam orta məktəbi | 12 | 1 | 12 | | | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | 2 | 24 |
| 40. | Kərimbəyli kənd tam orta məktəbi | 14 | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | | | | | 1 | 12 |
| 41. | Maxta kənd tam orta məktəbi | 13 | 1 | 12 | 1 | 14 | | | | | | | 1 | 10 | | | | | | | | | | | | | | | | | | | 3 | 36 |
| 42. | Dəmirçi kənd tam orta məktəbi | 16 | 1 | 18 | 1 | 16 | 1 | 12 | | | | | | | | | 1 | 12 | | | | | | | | | | | | | | | 4 | 58 |
| 43. | Təzəkənd tam orta məktəbi | 24 | 1 | 24 | | | 1 | 24 | | | | | 1 | 12 | 1 | 11 | | | | | | | | | | | | | | | | | 4 | 71 |
| 44. | Qaraburc ümumi orta məktəbi | 9 | 1 | 12 | 1 | 18 | 2 | 26 | 1 | 12 | | | | | | | | | | | | | | | | | | | | | 2 | 36 | 7 | 104 |
| 45. | Diyadin ümumi orta məktəbi | 16 | | | | | | | | | | | 1 | 6 | | | | | | | | | | | | | | | | | | | 1 | 6 |
| 46. | Xətai ümumi orta məktəbi | 14 | 1 | 14 | 1 | 16 | 1 | 12 | 1 | 8 | | | 1 | 10 | | | | | 1 | 10 | | | | | | | | | | | | | 6 | 70 |
| | **Cəmi:** | | **11** | **156** | **18** | **279** | **18** | **238** | **11** | **111** | **9** | **112** | **15** | **156** | **13** | **146** | **7** | **72** | **3** | **34** | **1** | **12** | **1** | **10** | **2** | **28** | **5** | **24** | | | **9** | **135** | **123** | **1513** |


## “İSTEDAD – XXI ƏSR”
## “Təhsil-Tədris Mərkəzi” MMC-nin nəzdində fəaliyyət göstərən
# İSTEDAD
## hazırlıq kursları 2014-2015-ci tədris ili üçün dinləyici qəbul edir

Azərbaycanın və dünyanın ən qabaqcıl ali təhsil müəssisələrinə, orta ixtisas məktəblərinə və hərbi liseylərinə qəbul olmaq istəyən şagird və dinləyicilər kursun xidmətlərindən istifadə edə bilərlər. Dinləyicilər aşağıdakı hazırlıq məşğələlərində iştirak edə bilərlər:

- V, VI, VII, VIII, IX, X, XI sinif şagirdləri
- Magistraturaya qəbul olmaq istəyən bakalavrlar
- Dövlət qulluğuna imtahanlara hazırlaşmaq istəyən şəxslər
- Xarici dillər (ingilis, fransız, rus, alman) üzrə danışıq dillərini öyrənmək istəyənlər
- Kompüter biliklərini mənimsəmək istəyənlər
- Məntiq kursları
- Mental Aritmetik kurslar ( 6-14 yaşlı uşaqlarda – əqli riyaziyyat və yaddaş texnikası proqramları, uşaqların yaddaş, qavrama, xəyal gücünü, hər sahədə sürətliliyi, məntiqi düşünmə bacarığını, riyazi hesablamaların zehində sürətli aparılmasını, beyin yarımkürələrinin paralel istifadəsini inkişaf etdirir).
- Məşğələlər qəbul imtahanı modelinə uyğun olaraq 3, 4 və 5 fənn üzrə aparılır.
- Məşğələlər həftədə 3 gün olmaqla, qruplar üzrə 9, 12, 15 və 18 saat keçirilir.
- Kursumuzda dərslər ixtisası üzrə təcrübəli müəllimlər tərəfindən tədris olunur.
- Hər mövzu sonrası şagird və dinləyicilərə mövzuları daha dərindən qavradan və testlərin həll metodunu öyrədən kiçik yoxlama testləri (sinif testi) keçirilir.
- Ayda bir dəfə qəbul imtahanı səviyyəsində hazırlanan sınaq imtahanları keçirilir.
- Kurs dinləyiciləri və şagirdlər bir sıra kateqoriyalar üzrə güzəştlərdən faydalana bilərlər.
- Sınaq imtahanının nəticələri optik oxuyucu vasitəsi ilə oxunub qiymətləndirilir və şagirdlərə, dinləyicilərə nəticə vərəqəsi verilir. Nəticə vərəqəsində şagirdin imtahan göstəricisi müfəssəl şəkildə göstərilir.

Hazırlıq kursuna daxil olmaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Şəxsiyyət vəsiqəsinin surəti*
*2. İki ədəd 3x4 sm ölçüdə fotoşəkil*

Qeydiyyat hər gün saat 9[00]-dan 18[00]-dək Tədris-Ticarət Mərkəzinin III mərtəbəsində aparılır.

***Əlaqə telefonları: 036-545-74-11***
***077-345-74-11***


### İtmişdir

Babək rayonunun Vayxır kənd sakini Seyidov Mirzeynalabdın Mirismayıl oğlunun adına olan JN-191[A] inventar nömrəli, 10313018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Orucov Bəxtiyar Abbas oğlunun adına olan avtomobilin texniki vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Orucov Bəxtiyar Abbas oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Orucov Bəxtiyar Abbas oğlunun adına olan silahın şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Səxavət və Vilayət Hacıyevlərə, əzizləri
**SƏTTARIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Afiq Haqverdiyev ailəsi ilə birlikdə Cəfərqulu Paşayevə, əzizi
**SEVİNC XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**
**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 725**